**Safruh**

# Tükənməz gözəllik

*(İçsəs)*



Qulağıma gözəl bir səs gələndə, gözümə gözəl bir üz görünəndə qanadlanıb uçuram; özümə gəlib, gözümü açanda görürəm ki, gərəkəndən çox uzaqlara uçmuşam.

***

Sevimli balam İnsan! Böyüyüb Mən olmağın üçün çalıram bu laylanı sənə.

***

Ay Tanrı, bu insanı ya bir az da aşağı elə, ya bir az yuxarı. Bu orta vəziyyət çaşdırır, üzür bizi.

***

Özümə (Özə) sevgimdə Başqasına (Özgəyə) nifrətim (acığım) yoxdur.

***

İnamı doğrultmaqdan gözəl əxlaq yoxdur, inanc yoxdur, sağlamlıq yoxdur, azadlıq yoxdur; İnamı doğrultmadan gözəl kişilik və xoşbəxtlik də yoxdur.

***

Bala (oğul, ya qız) Özün gerçəyə yansımasıdır (proyeksiyasıdır).

***

Mən ağzıma, gözümə, canıma dad istəyirəm, ancaq öz dadım üçün başqasını yazıq günə salmıram.

***

Türkcə üçün nə yaratdımsa, yaşamım (ömrüm) onca sayılsın.

***

"Başqası" olmaq kimsəni insanlıqdan çıxartmır.

***

Mən, Olmağı Bilməkdən də, Bacarmaqdan da üstün tuturam. (Əlbəttə, üçü birlikdə daha gözəldir!)

***

Böyük təsəlli üçün böyük yaradıcılıq olmalıdır, böyük yaradıcılıq üçün böyük coşğu (vəcd).

***

O qədər tənbələm ki, iş barədə yalnız ürəyimin buyuruğunu eşitmək istəyirəm. Çünki mən çörəyin boynuna minnət qoymuram, öz boynuma da minnət götürmürəm – çörəyim ürəyimin buyurduğu işdən çıxmalıdır.

***

İnsana yaraşmayan: "Mənə mənimki gərəkdir – yaxın-uzaq tanımıram; Bizə bizimki gərəkdir – yaxşı-yaman tanımırıq."

***

Yaxınlı-uzaqlı, yaxşılı-yamanlı İnsana yarayanı İnam Atanın Öyrətisi arayır.

***

Bir-birindən gözəl iki xanım, üzüm suluykən çıxıb getməyimi əngəlləyir, inadla məni ölüm öncəsinin zəlillik yatağına çəkir: 1) minbir cilvəli Səhər xanım; 2) çəkiciliyi (cazibəsi) atlını atdan salan Sevinc xanım.

***

Amaldaşım, bilirsənmi üzün məndən niyə döndü? Çünki, Amaldasım, bizim şəxşimizdə insanın boyu "Amal" ucalığına çatmadı.

***

Tanımadıqları, var olub-olmadığımı bilmədikləri halda, məni candan-ürəkdən sevənlərin olduğuna inanıram; mən də onları əslə tanımadan, bilmədən candan-ürəkdən sevirəm. Bu halı yaradan sevgilərimizin ortaqlığıdır. (Mütləqə İnam Ocağı üzrə mənimlə Amaldaşım arasında da olaydı keşkə!..)

***

Millətçilik – ulusallıq insanın ölümə qarşı dirənişinin kollektiv forması, ellik biçimidir.

***

"Oğul! Yapış ölümüm xirtdəyindən, bizi aparmağa qoyma!" deyir Ulus və onu eşidən Oğul Atatürk olur, İnam Ata olur.

***

Böyüklər, ona görə gözəlsiniz ki, Balacalar adlı keçmişiniz var – sizdə yaşayan.

***

Qocalar, ona görə gözəl və ulusunuz ki, Balacaların, Böyüklərin kökünüz – sizdən bəslənən.

***

Balacalar, ona görə gözəlsiniz, yeməlisiniz ki, İlahidən gəlirsiniz.

***

Qocalar, siz ona görə həm də ulu`sunuz ki, İlahiyə gedirsiniz.

***

Atamız var olsun!